# Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşır

## Ölkəmizin enerji siyasəti XII Qlobal Bakı Forumunda da təqdir edilir

**"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumunun gedişində toxunulan məsələlərdən biri də enerji sahəsinə aid idi. Belə ki, ölkəmizin neft-qaz istehsalı və ixracında, "yaşıl enerji"yə keçiddə qazandığı nailiyyətlər, bu istiqamətdə müəyyən etdiyi hədəflər bir daha vurğulandı.**



Məlum olduğu kimi, bu forum Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilir. Dövlətimizin başçısı forumdakı çıxışında həmin mərkəzin üzvlərinin keçən il Azərbaycanda keçirilən COP29-da fəal iştirakından məmnun qaldığını və bunun sözügedən qlobal tədbirə böyük töhfə olduğunu diqqətə çatdırdı. Təxminən 200 ölkənin yekdil qərarı ilə ev sahibi seçildiyimizdən fərəhləndiyimizi bildirdi. Belə ki, bu bizə olan hörmətin, etimadın təzahürü, eləcə də "yaşıl keçid" üzrə fəaliyyətimizə verilən qiymət idi.

Azərbaycan faydalı qazıntılarla zəngin ölkə olsa da, gündəliyində bərpaolunan enerji də diqqət mərkəzindədir: "Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 qiqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6,5 qiqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq. Bunun sayəsində biz nəinki neft və qazı, o cümlədən "yaşıl enerji"ni də ixrac edə biləcəyik. Bu rəqəmlər tamamilə realdır. Onlar artıq imzalanmış müqavilələrə və anlaşma memorandumlarına əsaslanır".

Hazırda həmin layihələr öz icrasının müxtəlif mərhələlərindədir. 2023-cü ilin oktyabrında "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verildi. "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası, Cəbrayıl rayonunda "Şəfəq" Günəş-Elektrik Stansiyası tikilməkdədir. Prezident İlham Əliyevin "yaşıl enerji" zonası elan etdiyi işğaldan azad olunmuş ərazilərimizdə qısa zamanda onlarla su-elektrik stansiyası və yarımstansiyası inşa edilib, "yaşıl enerji" layihələri digər bölgələrimizə də addımlamaqdadır.

Azərbaycan öz enerji sərvətlərinə məsuliyyətlə yanaşan ölkədir. Odur ki, enerji təchizatı baxımından qıtlıqla üzləşmirik. Əksinə, bu gün Azərbaycan neçə-neçə ölkənin enerji təhlükəsizliyinə töhfə verir. 12 ölkə - Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiya Azərbaycandan təbii qaz alır. Göründüyü kimi, onlardan 10-u Avropa ölkəsidir.

Təsadüfi deyil ki, Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa enerji təchizatçısı adlandırıb. "Bir sözlə, bu gün Azərbaycandan nəql olunan neft və qaz bir çox ölkələrin enerji təhlükəsizliyində və əslində, onun möhkəmləndirilməsində həqiqətən böyük dəyişiklik yaradır. Buna "yaşıl enerji" mənbələrimizi, o cümlədən Azərbaycandan Avropaya gedən, qismən Qara dənizin dibi ilə çəkilən yeni enerji kabelini əlavə etsək, bu, məsuliyyətimizin digər təzahürü və bir çox ölkələrlə sıx tərəfdaşlıq münasibətlərimizin nümayişidir", - deyə Prezidentimiz öz çıxışında bildirib.

Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol da çıxışında enerji təhlükəsizliyi və iqlim dəyişmələri məsələlərinə diqqət çəkib və Azərbaycanı Avropanın, eləcə də digər ölkələrin enerji böhranının həllində etibarlı tərəfdaş adlandıraraq deyib: "Bir çox ölkələr enerji böhranı zamanı bir daha anladılar ki, Azərbaycan etibarlı və etimadı doğuran tərəfdaşdır. Bu, bir daha sübuta yetirildi. Mən ümid edirəm ki, Azərbaycandan Avropaya qaz ixracı gələcəkdə artacaq. Mən, həmçinin ümid edirəm ki, Azərbaycanın "yaşıl dəhliz" gündəliyi - Qara dənizin dibi ilə Avropaya gedən elektrik enerji kabeli layihəsi uğurlu olacaqdır".

Beləliklə, "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"lə bağlı məsələlər daim diqqət mərkəzindədir. Xatırladaq ki, imzalandığı tarixdən - 2022-ci il dekabrın 17-dən bəri sazişin icrası məqsədilə Nazirlər/Rəhbər Komitənin 10 iclası keçirilib.

Prezident İlham Əliyevin XII Qlobal Bakı Forumunda enerji məsələləri barədə dediklərində bir mühüm məqam da diqqəti çəkir. "Təkcə enerji sərvətlərinin olması kifayət deyil. Siz gərək qonşularınızla, onların qonşuları ilə yaxşı münasibətdə olasınız ki, enerji, təhlükəsizlik və bağlantı layihələrini icra edə biləsiniz", - deyə Prezidentimiz qlobal forumda, əslində, daha bir qlobal məsələyə toxunub.

Azərbaycan həmişə yaxşı qonşu olub. Bundan isə həm özümüz bəhrələnmişik, həm də yaxşı qonşuluq etməyi bacaranlar.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 15 mart (№57).- S.14.